Azərbaycan Respublikası
Mədəniyyət Nazirliyi

Firidun bəy Köçərli adına
Respublika Uşaq Kitabxanası

*Uşaq ədəbiyyatı xəzinəsindən*

# TOFİQ MAHMUD

(Mehdiyev Tofiq Mahmud oğlu)

***Biblioqrafiya***

**Bakı - 2018**

**KBT** Я19:Ш+Ш 5(2=Аз)7-4.4
**UOT** 016:821.512.162

**Tərtibçilər:** **Nazilə Tahirova,** *Əməkdar mədəniyyət işçisi*
**Leyla Qafarova**
**Tünzalə Əzizova**

**İxtisas redaktoru və buraxılışa məsul:** **Şəhla Qəmbərova,** *Əməkdar mədəniyyət işçisi*

**Ön sözün müəllifi:** **Füzuli Əsgərli,** *filologiya üzrə fəlsəfə doktoru, dosent*

**Redaktor:** **Yadigar Əsgərova,** *filologiya üzrə fəlsəfə doktoru*

**Tofiq Mahmud:** biblioqrafiya /tərt. ed.: N.Tahirova, L.Qafarova, T.Əzizova; ixt. red. və burax. məsul.: Ş.Qəmbərova; red. Y.Əsgərova; Firidun bəy Köçərli adına Respublika Uşaq Kitabxanası.- Bakı, 2018.- 272 s.

Biblioqrafiya Azərbaycan uşaq ədəbiyyatının görkəmli nümayəndəsi, tanınmış şair Tofiq Mahmudun həyat və yaradıcılığına həsr olunmuşdur. Burada ədibin 1948-2018-cu illərdə dərc edilmiş əsərlərinin adları və onun haqqında yazılan materiallar öz əksini tapmışdır. Göstərici ədəbiyyatşünas alimlər, tədqiqatçılar, kitabxanaçı-biblioqraflar və geniş oxucu kütləsi üçün nəzərdə tutulmuşdur.

ISBN 978 9952 526 38 7

**©F.Köçərli adına Respublika Uşaq Kitabxanası, 2018**

## Tərtibçidən

Azərbaycan uşaq ədəbiyyatının görkəmli nümayəndəsi, şair, tərcüməçi Tofiq Mahmud oğlu Mehdiyev 1931-ci il noyabrın 6-da Naxçıvan MR-nın Şahbuz rayonunda anadan olmuşdur. İlk şeiri "Şirindir" 1948-ci ildə "Azərbaycan pioneri" qəzetində dərc olunmuşdur. 1976-cı ildən "Göyərçin" jurnalının redaktoru vəzifəsində işləmişdir. Azərbaycan Respublikası Uşaq Fondunun Bakı şöbəsinin sədri, həm də rəyasət heyətinin üzvü olmuşdur. Azərbaycan Yazıçılar Birliyi uşaq və gənclər ədəbiyyatı şurasının sədri, SSRİ Yazıçılar İttifaqı uşaq və gənclər ədəbiyyatı şurasının üzvü seçilmişdir.

F.B.Köçərli adına Respublika Uşaq Kitabxanasının əməkdaşları şairin yaradıcılığını tam halda işıqlandırmaq məqsədilə fundamental biblioqrafik vəsait tərtib etmişlər.

Ədibin ədəbi-ictimai fəaliyyətini tam şəkildə əks etdirən bu fundamental biblioqrafik göstərici 1948-2018-cu illərdə dərc olunmuş materialları əhatə edir.

Göstərici 3 hissədən ibarətdir:

I hissə - Tofiq Mahmudun əsərləri;

II hissə - Tofiq Mahmud haqqında;

III hissə - xarici dillərdə;

Göstəricidə həmçinin şairin Azərbaycan Respublikası Dövlət Ədəbiyyat və İncəsənət Arxivi idarəsində toplanan şəxsi arxiv materialları öz əksini tapmışdır.

Biblioqrafiyada "Tofiq Mahmud görkəmli şəxsiyyətlər haqqında", "Görkəmli şəxsiyyətlər, elm və mədəniyyət xadimləri Tofiq Mahmud haqqında" adlı bölmələrdə verilmiş materialların müxtəlif oxucu qruplarının marağına səbəb olacağı şübhəsizdir.

Vəsaitdə materiallar bölmələr üzrə xronoloji ardıcıllıqla, daxildə isə əlifba sırasına uyğun olaraq qruplaşdırılmışdır.





Biblioqrafiyadan istifadəni asanlaşdırmaq məqsədilə Tofiq Mahmudun əsərlərinin və onun haqqında yazan müəlliflərin əlifba göstəricisi tərtib edilmişdir.

Biblioqrafik vəsait geniş oxucu kütləsi- tələbələr, tədqiqatçı-alimlər, bütün ədəbiyyat həvəskarları üçün nəzərdə tutulmuşdur.

Biblioqrafik göstərici haqqında rəy və təkliflərini bildirən mütəxəssis və oxuculara əvvəlcədən minnətdarlığımızı bildirir, təklif və iradlarını Firidun bəy Köçərli adına Respublika Uşaq Kitabxanasına göndərmələrini xahiş edirik.

**Ünvan:** Bakı şəh., S.Vurgun küç. 88;
**E-mail:** info@ clb az.

## Tofiq Mahmud bədii yaradıcılığının sirləri

Azərbaycan uşaq poeziyası və nəsr yaradıcılığında öz orijinal dəst-xətti olan, ömrünün çox hissəsini uşaqların bir şəxsiyyət kimi formalaşmasına sərf edən, onlara vətən sevgisi aşılayan, kiçikyaşlı oxucuları arxasınca aparmağı bacaran Tofiq Mahmudun bədii yaradıcılığı bu gün də aktuallığını saxlamışdır.

1948-ci ildə "Şirindir" adlı ilk şeiri "Azərbaycan pioneri" qəzetində dərc olunanda o, hələ tələbə idi. Azərbaycan Dövlət Universitetinin filologiya fakültəsini bitirəndən sonra Mədəniyyət Nazirliyində fəaliyyətə başlayan T.Mahmud daha sonrakı illərdə "Azərbaycan müəllimi" qəzeti redaksiyasında xüsusi müxbir və "Göyərçin" uşaq jurnalında ədəbi işçi kimi çalışmış, 1976-cı ildən ömrünün sonuna qədər isə "Göyərçin" uşaq jurnalının baş redaktoru vəzifəsində fəaliyyət göstərmişdir. Çoxillik jurnalistlik fəaliyyəti onu mövcud həyatla, müxtəlif xarakterli insanlarla yaxından ünsiyyət bağlamağa öyrətmiş, bir uşaq şair və yazıçısı kimi formalaşmasına da öz müsbət təsirini göstərmişdir.

Zaman keçdikcə S.Vurğun, R.Rza, S.Rəhimov, M.Hüseyn, Ə.Vəliyev, Ə.Əlibəyli, İ.Səfərli və sair görkəmli sənətkarlarla yaxından təmasda olan, onlardan məsləhətlər alan, poeziya və nəsrin möcüzəli sirlərinə daha dərindən bələd olan T.Mahmud ilahi vergili bir qələm sahibi kimi ədəbi ictimaiyyətdə tanınmağa başladı. Milli uşaq ədəbiyyatına güclü yaradıcılıq meyli onu kiçikyaşlı uşaqlara sevdirdi. "Yola çıxıram" adlı ilk kitabını 1959-cu ildə nəşr etdirən sənətkarın ondan sonra xeyli sayda şeir və nəsr əsərləri işıq üzü gördü."Dibçək" (1962), "Utancaq oğlan" (1964), "Meşədə səs" (1969), "Ana qucağı" (1971), "Dalğalar" (1976), "Pəncərəyə toxunan budaq" (1978), "Kəpənək gözəlliyi" (1980), "Yerə dağılan muncuqlar" (1983) və sair bədii kitablar sənətkarı oxucular arasında daha yaxından tanıtdı. "Meşədə səs",





"Qızımın sualları" və "Kəpənək gözəlliyi" adlı kitablarında toplanmış şeir və poemaları kiçikyaşlı oxucular arasında daha geniş yayıldı. Onun uşaq poeziyası Moskvada nəşr olunan "Murzilka", "Pioner" və "Vesyolıye kartinki" adlı jurnallarda dərc olundu.

Uşaqların mənəvi zənginliyinin qayğısına qalan şair, onlarda incəlik, həssaslıq tərbiyə etmək, biliyə məhəbbət hissləri aşılamaq arzusu ilə rəngarəng mövzulara müraciət etmişdir. Gənc nəslin dünyaya baxışına, dərketmə qabiliyyətinə, xarakter və psixologiyasına daha yaxından bələd olan şair, yaradıcılığında poetik məzmuna, uşaq nitqinə məxsus olan spesifik ifadələrin poetik düzümünə, obrazlılıq effektinə xüsusi diqqət yetirmiş, nəticədə, uşaqlar üçün uğurlu şeirlər yarada bilmişdir. Onun "Apar məni", "Ehey, durnalar", "Şeir sevən qız", "Hirslənən oğlan", "Uzunburun" və digər şeirləri olduqca maraq doğurur.

Epik əsərlərində müxtəlif xarakterli uşaq obrazlarının zahiri və mənəvi portretini məharətlə yaradan şair, düzümlü misraların poetik məzmununa da diqqət yetirmişdir.

"Ehey, durnalar" əsərində şair məsum qəlbə malik uşağın qərib, köçəri quşa məhəbbətini poetik dillə təsvir edir, körpə anlamına xas olan söz və ifadələrdən məharətlə istifadə edərək qüvvətli təkrirlər ("Ehey... ehey... durnalar"), bədii xitablarla vəhdətdə poetik obrazlılıq yaradır.

T.Mahmudun şeirlərində təbiət gözəlliyi öz əsrarəngiz poetik ifadəsini tapır, uşaq anlamına uyğun konkret orijinal təsvirlərin incə çalarları ilə poetik hisslər yaradılır. "Meşəyə yağış yağır" şeirində şair poetikanın zəngin palitrasından bəhrələnərək təbiətin ecazkar mənzərəsini oxucuya təqdim edir:

Səs salıb, ağır-ağır
Meşəyə yağış yağır,
Yarpaqlardan süzülür,
Budaqlardan süzülür.

Meşənin hər yanında
İnci kimi düzülür.
Seyr et hər bir damlanı,
Heyran qoyur adamı.

T.Mahmudun təbiət mövzusunda qələmə aldığı şeirləri az deyildir. “Qışda dağ meşəsi”, “Qar tökülür”, “Qırov”, “Lirik damcılar” və sair şeirlərində təsvirlər öz gözəlliyi ilə oxucunun könlünü oxşayır. “Poeziya mənim üçün möcüzədir... yenə də möcüzə olaraq qalır” deyən şair əsl sənətkar icadı ilə öz əsərlərini yaratmışdır. Azərbaycanın təkrarsız mənzərələrinə dəlicəsinə vurğunluq, onun meşələrini, büllur bulaqlarını, coşqun çaylarını poetik misralarla təsvir etmək T.Mahmud yaradıcılığının əsas səciyyəvi xüsusiyyətlərindən biridir.

Şair “Sehrli meşəbəyi” poemasında yurdumuzun ecazkar gözəlliyindən zövq alan, bu gözəlliyin pozulmaması üçün canını qurban verməyə belə hazır olan, yaşıllığın qoynunda yaşayan canlı varlıqları göz bəbəyi kimi qoruyan meşəbəyi obrazını yaratmaqla bütün bəşər övladını ondan nümunə götürməyə çağırır.

Azərbaycan təbiətinin əsrarəngiz gözəlliyi ilə yanaşı, onun bərəkətli, bol məhsul gətirən müqəddəs torpaqları, Vətənimizin hər bir dilbər guşəsi T.Mahmud poeziyasında öz əksini tapmışdır. Xalqımızın qəhrəman mərd oğullarının ölməz obrazlarını yaradan şair, onları yeni nəslə nümunə göstərir, vətənimizə göz dikmiş mənfur düşmənə qarşı mübariz olmağa haraylayır.

T.Mahmud poeziyaya böyük dəyər verirdi. “Bütün dünyada ən ülvi nemət poeziyadır, onsuz həyat solğun və mənasız görünərdi” deyən şair poetik axtarışlara çıxmış, gözəl şeir nümunələri yaratmışdır.

“İki bulaq” adlı lakonik şeirində bunları görə bilirik:

Öz gözümlə görmüşəm,
Dağda iki bulaq var.





Biri buz kimi soyuq,
Biri od kimi qaynar.

Biri – içmək istəsən –
Dodağını yandırar,
O biri – əl uzatsan –
Barmağını dondurar.

T.Mahmudun nəsr əsərləri də rəngarəng mövzulara həsr edilmişdir. “İgid təyyarəçinin qardaşı”, “Adada hadisə”, “Səlim haqqında iki hekayə”, “Meşədə qız” və sair hekayələrdə insan amili önə çəkilmiş, onun həyat problemlərinin müsbət həlli yolları reallıqla göstərilmişdir. O cümlədən, “Yerə dağılan muncuqlar”, “Gecə qapı döyülür”, “Hil-hil meşəsinin payızı” və sair povestləri gənclər tərəfindən maraqla oxunur.

Azərbaycan uşaq nəsrində məktəb həyatından yazılan əsərlər o qədər də çox deyildir. Gənclərin həyatına dərindən bələd olmaq, şagirdlərin bir-birinə bənzəməyən xarakter və psixologiyasını, dünyaya baxışını araşdırmaq hər uşaq yazıçısına nəsib olmur. Lakin T.Mahmud ciddi müşahidələr apararaq, bu sirli, olduqca mürəkkəb məktəb həyatına nüfuz edə bilmiş, oxunaqlı nəsr əsəri yaratmağa nail olmuşdur.

Povestdə müxtəlif xarakterə malik olan yuxarı sinif şagirdləri qarşı-qarşıya dayanırlar. Öz biliyi ilə “Elektron” ləqəbi qazanmış Şənər, ədəbi yaradıcılıq məharəti ilə şagird yoldaşlarından seçilən Yusif, qəribə hərəkətləri ilə həmişə gülüş doğuran Bikə, xudbin təbiətli, özündən başqa heç kimi sevməyən Gülbəniz, incə qəlbə malik, Şənərin vurğununa çevrilmiş Şəfəq, çətin islah olunan, həbsdən yenicə çıxmış Seyidin təsirinə düşən Neman və sair obrazların fəaliyyəti elə real, təsirli təsvir edilmişdir ki, bu əsər oxşar həyat tərzi keçirən hər bir yeniyetmənin stolüstü kitabına çevrilir. Əsərdə yuxarı sinif şagirdlərinin dünyaya baxışı, sevib-sevilmək arzuları, mənəvi paklığı önə çəkilmiş, yeniyetməlik

dövründəki mənəvi həyat problemlərinin həlli yolları əsas götürülmüşdür. Əsərdəki obrazların ətraf gerçəkliyə şəxsi münasibətləri, əxlaq paklığı, mənəvi nəcibliyi, onlar arasındakı münasibətlərin reallığı təsvir olunduqca, əsərin bədii dəyəri üzə çıxır.

T.Mahmud yazırdı: "Uşaq ədəbiyyatına, nəsr yaradıcılığına güclü meyl göstərməyim poeziyadan soyumağım, ondan uzaqlaşmağım demək deyildi. Daxili, mənəvi böhranlar, tərəddüdlər, əzablar çəksəm də, hətta bəzən poeziyadan uzaqlaşmaq fikrinə düşsəm də, müvəqqəti fasilə versəm də, ondan uzaqlaşa bilmədim".

T.Mahmud olduqca sadə, təvazökar, incə qəlbə malik, xeyirxah bir şəxsiyyət idi. Onu daha yaxından tanıyan və onunla yaxın dost olan görkəmli şair Zahid Xəlil ona xas olan bütün xarakterini açır:

Bir şair dostum vardı,  
Tofiq Mahmud adında.  
Sevgisi oxunardı  
Gözlərinin odunda.

Sadəydi Tofiq Mahmud,  
Şagird imlası kimi.  
Təmizdi Tofiq Mahmud,  
Bulaq damlası kimi...

Mənim də T.Mahmudla yaxın münasibətim vardı. Mən Moldova uşaq yazıçısı Filip Mironovun "Bizi unutmayın, insanlar" adlı kitabının tərcüməsi üzərində işləyirdim. Bu kitabın içindən "Balaca çoban Dumitraş" hekayəsini "Azərbaycan pioneri" qəzetinə təqdim etmişdim və orada dərc olunmuşdu. Bir gün "Azərbaycan" nəşriyyatında rastlaşdıq və o mənim bu tərcüməmi səmimi şəkildə, sevinc içində təriflədi, gördüm ki, mənim uğuruma o da sevinir. Sonra qəzeti Filip Mironova göndərdiyini də





bildirdi. Çünki o, bu yazıçını yaxından tanıyır və onunla dostluq münasibətləri vardı.

Bəli, T.Mahmud olduqca sadə, səmimi və təvazökar bir şəxsiyyət idi. Bu xarakteri də ona böyük nüfuz qazandırmışdı.

T.Mahmud həm şair, həm nasir, həm publisist, həm də tərcüməçi kimi fəaliyyət göstərmişdir. Gözəl əsərlər müəllifi olan sənətkarın bir çox əsərləri dünya xalqlarının dilinə tərcümə edilmişdir.

**Füzuli Əsgərli,**  
*filologiya üzrə fəlsəfə doktoru, dosent*

## Tofiq Mahmudun həyat və yaradıcılığının əsas tarixləri

**Tofiq Mahmud oğlu Mehdiyev** 1931-ci il noyabr ayının 6-da Naxçıvan MR-nın Şahbuz rayonunda anadan olmuşdur. Orta təhsilini Bakıda 31 saylı məktəbdə almışdır.

**1948** - İlk şeiri "Şirindir" "Azərbaycan pioneri" qəzetində dərc olunmuşdur.

**1949-1954** - S.M.Kirov adına Azərbaycan Dövlət Universitetinin filologiya fakültəsini bitirmişdir.

**1954** - Əmək fəaliyyətinə Azərbaycan Mədəniyyət Nazirliyinin mədəni-maarif müəssisələri idarəsində metodiki kabinetin metodisti kimi başlamışdır.

**1958** - Azərbaycan Yazıçılar Birliyinin üzvü seçilmişdir.

**1958-1961** - "Azərbaycan müəllimi" qəzeti redaksiyasında xüsusi müxbir işləmişdir.

**1961** - "Göyərçin" jurnalı redaksiyasında ədəbi işçi kimi fəaliyyət göstərmişdir.

**1963** - "Göyərçin" jurnalı redaksiyasında məsul katib vəzifəsində çalışmışdır.





**1966** - Sovet İttifaqı Kommunist Partiyasının üzvü seçilmişdir.

**1968** - Uşaq mətbuatı və ədəbiyyatı sahəsində xidmətlərinə görə Azərbaycan SSR Ali Soveti Rəyasət Heyətinin Fəxri fərmanı ilə təltif edilmişdir.

**1976** - "Göyərçin" jurnalının redaktoru vəzifəsində işləmişdir.
- Azərbaycan Yazıçılar Birliyi uşaq və gənclər ədəbiyyatı şurasının sədri, keçmiş SSRİ Yazıçılar İttifaqı uşaq və gənclər ədəbiyyatı şurasının üzvü seçilmişdir.
- Balakən rayonunun kolxozlarında və müəssisələrində məzmunlu, maraqlı çıxışlarına görə fəxri fərmanla təltif edilmişdir.

**1977** - Böyük Oktyabr Sosialist inqilabının 60 illiyi ilə əlaqədar Azərbaycan SSR Mədəniyyət Nazirliyinin keçirdiyi müsabiqədə bəstəkar Məmməd Quliyevlə bir yerdə yazdığı "Günəşli dağlar haqqında dastan" akapellası üçün birinci mükafat almışdır.

**1984** - "Azərbaycan Lenin komsomolu" mükafatı laureatına layiq görülmüşdür.

**1988** - V.İ.Lenin adına Sovet Uşaq Fondunun Azərbaycan Respublika şöbəsinin

sədri, həm də rəyasət heyətinin üzvü olmuşdur.

**1997, 4 aprel** - Bakıda vəfat etmişdir.
- Azərbaycan Yazıçılar Birliyi "Tofiq Mahmud" adına mükafat təsis etmişdir.





# Tofiq Mahmudun müdrik fikirləri

Biz uşaqlarımızı yüksək, mədəni, dünyagörüşü geniş, hərtərəfli inkişaf etmiş, ağıllı görmək istəyirik. Müəllim bu məqsəd üçün gözünün nurunu, qüvvəsini, qanını, bir sözlə bütün varlığını şagirdlərə verir. Bununla yanaşı valideynlərin də əməyi çox olmalıdır! Onların birgə səyi nəticəsində uşaqlarımız yüksək duyğularla: vətənpərvərlik, mübarizlik, hər cür riyakarlıqdan, yalançılıqdan, pis əməllərdən uzaq olan təmizlik, nəciblik ruhunda böyüməlidirlər. Bu, ən müqəddəs və ən şərəfli bir işdir.

***

Balaca vaxtdan özünü zəhmətə, öyrənməyə, şirin və gözəl arzularla yaşamağa, kitabı sevməyə, müntəzəm surətdə mütaliə etməyə öyrədən bir uşaq gələcəkdə, heç şübhəsiz, ağıllı, kamallı, yüksək səviyyəli, mədəni, inkişaf etmiş bir vətəndaş olacaqdır.

***

Uşaqlar balaca kosmonavtlara bənzəyirlər. Onların elə güclü xəyalları, elə gözəl arzuları vardır ki, həmişə, hər zaman bu xəyallar və arzularla yaşayırlar.

***

Uşaq kitablarının yüksək səviyyədə çıxmasına biganə münasibət təhlükəlidir və dözülməzdir. Səliqəli, gözəl geyinən, ağıllı, kamallı uşaqlar hamının xoşuna gəldiyi kimi, onlar üçün buraxılan kitabların da məhz belə səliqəli və gözəl olmağını istəmək də təbiidir, lazımdır və vacibdir. Belə yüksək kitabları buraxmaq-balalarımıza böyük məhəbbət bəsləmək deməkdir. Əgər bu məhəbbət varsa, ümid etmək olar ki, tezliklə həm bədii, həm poliqrafik səviyyəli yüksək kitab nümunələri üzə çıxacaqdır.

Uşaq ədəbiyyatına asan, ötəri bir sahə kimi baxmaq düzgün

deyildir. Uşaq ədəbiyyatı böyük, ciddi, məsuliyyətli və çox şərəfli bir ədəbiyyatdır. Bu sahədə uşaq ruhu, psixologiyası ilə yanaşı sənətkarlıq da olmalıdır. Özü də böyük və yüksək sənətkarlıq! Azərbaycan uşaq ədəbiyyatında isə sənətkarlıq məsələsində ciddi qüsurlar nəzərə çarpır. Bir çox əsərlərdə tələsiklik, səthilik, yüngül münasibət duyulur ki, bunlar uşaq ədəbiyyatına ziyan gətirir.

***

Bütün dünyada ən ülvi nemət poeziyadır, onsuz həyat solğun və mənasız görünərdi.

***

Uşaq ədəbiyyatına, nəsr yaradıcılığına güclü meyl göstərməyim poeziyadan soyumağım, ondan uzaqlaşmağım demək deyildi. Daxili, mənəvi böhranlar, tərəddüdlər, əzablar çəksəm də, hətta bəzən poeziyadan uzaqlaşmaq fikrinə düşsəm də, müvəqqəti fasilə versəm də, ondan uzaqlaşa bilmədim.





## Tofiq Mahmud görkəmli şəxsiyyətlər haqqında

***Abbas Səhhətin*** *bir çox uşaq şeirləri bu gün də təzə səslənir və həvəslə oxunur. Bunun səbəbi nədir?! Çünki onun şeirlərində böyük səmimiyyət, təbiilik və təzəlik vardır. O, məhəbbətlə, ilhamla yazdığı, sadəliyə, konkretliyə meyl etdiyi, uşaq ruhunu məharətlə tuta bildiyi üçün bu şeirlər güclü çıxmış və unudulmaz olmuşdur.*

***

***Əhməd Cavadın*** *ilk şeirlərindən başlayıb son şeirlərinə qədər yavaş-yavaş irəlilədikcə şimal və cənub qütbü kimi bir-birindən kəskin surətdə fərqli iki qütb görmək olar. Qışdan bahara birdən-birə gözlənilmədən köçmək mümkün olmadığı kimi, bu iki qütbün yaranması da yavaş- yavaş tədriclə baş vermişdir. Əlbəttə belə yolu izləmək, müqayisə və təhlil etmək, araşdırmaq, elmi nəticələrə gəlmək böyük tədqiqatın işidir.*

***

***Mikayıl Rzaquluzadə*** *ədəbiyyatımızda yaş nəslin tərbiyəsi uğrunda çalışan xadimlərdən biridir. Cilddəki əsərlərdə janrlardan asılı olmayaraq, mühüm, aparıcı məsələ yüksək tərbiyə məsələsidir. Yazıçı həyatın bu uca, bu yüksək məsələsini əsas götürmüş, imkanları daxilində çalışmış, uşaqların və gənclərin həyata, dünyagörüşünə təsir edə biləcək əsərlər yaratmışdır. M.Rzaquluzadənin bütün əsərlərində yüksək insani keyfiyyətlər-nəciblik, qəhrəmanlıq, xeyirxahlıq motivləri, vətənpərvərlik duyğuları əsasdır. O, təkcə tərbiyəvi əsərlər yazmaqla kifayətlənməmiş, ədəbiyyatımızda bu məsələ ilə əlaqədar olaraq ədəbi-tənqidi məqalələrlə çıxış etmiş, bir sıra mühüm, ciddi məsələlər də qaldırmışdır.*

***

***Mehdi Seyidzadə*** *ədəbiyyatımızda uşaq şairi kimi tanınmışdır və bu sahədə onun xidmətləri çoxdur. Azərnəşr tərəfindən bu il çapdan buraxılmış iki cildlik seçilmiş əsərləri göstərir ki, o yaradıcılığını təkcə uşaqlara və yeniyetmələrə həsr etməmiş, bununla paralel olaraq başqa mövzularda da yazıb yaratmışdır. İkicildlik şeirin keçib getdiyi yol haqqında, ədəbi fəaliyyətinin əsas istiqaməti, xətti haqqında, eyni zamanda yaradıcılıq müvəffəqiyyətləri, zəif cəhətləri haqqında tam təsəvvür verir. Küll halında götürdükdə janrından, mövzusundan asılı olmayaraq Mehdi Seyidzadənin bütün əsərlərində yeni nəslin tərbiyəsi, onların yüksək əxlaq ruhunda tərbiyəsi məsələsi ən aparıcı, ən əsas motivdir.*

***

***Əhməd Cəmil*** *mənim üçün həmişə doğma bir şair olub. Onun ədəbi irsi o qədər zəngin deyil, amma bu sənətin elə müsbət cəhətləri, xüsusiyyətləri, sehrləri, sirləri var ki, bunlara laqeyd qalmaq olmur. Bütün ömrü boyu özünə, ədəbi üslubuna, yaradıcılığına böyük sədaqətlə yanaşıb, özünü ilk qələm təcrübələrindən belə tanıdıb, son misralarını yazana qədər də belə qalıb.*

***

*Uca dağların döşündən təmiz, coşğun və gözəl bir çeşmə axır. Onun suyu heç zaman kəsilmir. Azərbaycanın görkəmli xalq yazıçısı* ***Süleyman Rəhimovun*** *böyük və zəngin yaradıcılığı bu çeşməyə bənzəyir.*

*Süleyman Rəhimov uşaqları unutmamış, onlar üçün də bir sıra maraqlı əsərlər yaratmışdır. "Ata və oğul" povestində uşaqların həyatından gözəl və maraqlı lövhələr vardır. Uşaq mətbuatında müntəzəm surətdə çapdan çıxan hekayələri səmimi, ibrətli və mənalıdır.*





***

*Yazıçı* ***Əbülhəsən****! Mən onun özünə, yaradıcılığına hörmətlə yanaşırdım. Burda isə özünü sevdim, ürəkdən sevdim. Onda uşaq sadəlövhlüyü vardı. Mehribandı.*

***

***Hikmət Ziya*** *ürəyi açıq, geniş, təmiz bir adamdır. Hikmət Ziya əvəzsizdir. Hikmətdə satirik istedad çox güclüdür. Hikmət Ziya mənəvi təmizliyi, saflığı, sədaqəti, möhkəm dostluğu, nəcibliyi ilə fərqlənən xeyirxah bir insan idi. Təəssüf ki, ədəbiyyat meydanında onun bu gücü hələ lazımınca qiymətləndirilmir.*

***

***Mikayıl Müşfiqin*** *ürəyi odla dolu idi. Bu od heç zaman sönmürdü. Onun özü indi həyatda yoxsa da, ancaq ürəyinin odu yenə vardır və o, bugün də sönməmişdir. Sabah da sönməyəcəkdir. Bu odun şöləsini görmək mümkün deyildir. Onu duymaq və ürəkdə hiss etmək olar. Bunun üçün şairin əsərlərini diqqətlə oxumaq lazımdır. Bu sönməz od onun əsərlərində qalmışdır. Şairin hər sözü bir qığılcım idi, bu qığılcımların birləşməsindən yaranan şeirlər illər keçməsinə baxmayaraq öz təravət və parlaqlığını hələ də itirməmişdir.*

***

*İnstitut yoldaşlarımdan* ***Bəkir Nəbiyev*** *çox çalışqan, şən, zarafatı sevən, bir an belə sakit durmayan, uşaqlar arasında hörmət qazanan və mənim sevdiyim istedadlı gənclərdən idi.*

***

***Məmməd Arazla*** *ani görüş! Necə üstümə gəldi, necə dayandı. Mənim ona bəslədiyim böyük məhəbbətimə sanki məhəbbətlə cavab vermək istəyirdi. Bütün günü ondan qəlbimdə yandırdığı işıqla yaşadım. Məndən çox-çox üstün olmasına baxmayaraq, öz üstünlüyünü göstərmədən, sadə mehriban rəftarı gözəldir!*

***

***İsa Hüseynovun*** *"Quru budaq" povesti! İsanın yaradıcılığı haqqında yüksək fikirdəyəm. Bu təzə əsərində də yaxşı yerlər, sənətkarlıqla yazılmış parçalar çoxdu.*

***

***Əli Kərimlinin*** *ölümündən iki il keçir. Qəribədir ki, ölümündən iki il əvvəl yaşayır yaradır, yazıb tökürdü. Ancaq elə bil ki, yox idi. Gözə dəymir, nəzərə çarpmırdı. Ölümündən sonra iki il nə yaşamış, nə də yaratmışdı. Fəqət mətbuatda tez-tez görünmüş, nəzərə çarpmış sağ bir adam kimi yeni şeirlərlə çıxış etmişdir.*

*Təpədən dırnağa qədər poetik hisslərlə yaşayan bir insanın özünəməxsus müqəddəs və sehrli cəhətləri çoxdu. Bir insan kimi o qədər yüksəkdə dayanırdı ki, ulduzlar kimi əlçatmaz olurdu. Onu həyata, sənətə, poeziyaya bağlayan tellər möhkəm və güclü olduğu üçün gözəl əsərlər yazır, bu əsərlər ona şöhrət gətirirdi. Elə bil bu şöhrəti görmürdü, bu şöhrətlə yox, yeni sənət eşqi ilə yaşayırdı.*

*Əli Kərimin ən yaxşı şeirlərində daxili bir emosiya, qüvvə, hərarət, inersiya, obrazlılıq, yığcamlıq, ifadəlilik və bunların birləşməsindən doğan sehrli bir işıq yanmaqdadır. Bu işıq göz qamaşdırıcı deyildir, dərhal parlayıb gözə girmir. Get-gedə təsirini göstərir, yandırır, yandırdıqca da həmişəlik ürəkdə qalır.*

*Ə. Kərim şöhrət pilləsini asan yolla fəth etmək istəyənlərdən, müxtəlif vasitələrlə, münasibətlərlə cığır açanlardan deyildi. O, elə saf, təmiz idi ki, "orijinal poemadan tutmuş kiçik bir şeirin tərcüməsinə qədər"(Qabil) sənətə böyük sədaqət göstərir və bu sədaqətlə yaşayırdı. Çiçək kimi təravətli əsərləri çiçək kimi müvəqqəti deyildir, əbədidir və heç zaman solmayacaqdır.*

***

*Yuxu kimi, nağıl kimi keçən mənalı günlər! Bu günlərin əvəzsiz şahı* ***Rəsul Həmzətov!*** *Həmişə yeni-yeni fikir qığılcımları ilə parlayırdı. Bizimlə elə qaynayıb qarışırdı ki, onun böyüklüyü*





*gözə görünmürdü. Bu, hər addımda müdrik, hər addımda qeyri-adi idi.*

***

***Hüseyn Abbaszadə*** *bütün əsərlərində müasirliyə meyl edən yazıçı kimi tanınmışdır. Müharibə mövzusu ona heç zaman rahatlıq vermir, amma bu mövzunu bugünkü hadisələrlə, əhvalatlarla, duyğularla bağlaya bilir, əsərlərinin ruhuna, canına təzə motivlər gətirir. "Uzaqdan gələn qonaq", yaxud "Dörd bazar günü" povestlərini təkcə müharibədən danışan əsər kimi qəbul etmək düz olmaz. Çünki müharibə xatirələri ilə bugünkü həyat hadisələri bir-biri ilə vəhdətdə verilir.*

*H.Abbaszadə povestlərin təsvirində uydurmaların, təmtəraqlı, qeyri-adi hadisə və əhvalatların dalınca getmir. Halbuki, bunlar üçün istənilən qədər imkan olur. O gördüyü, duyduğu, yaşadığı, mükəmməl öyrəndiyi bir həyatdan yazır. Buna görə də, bu yeni əsərlərdə sünilik, qondarmaçılıq yox dərəcəsindədir. Yazıçı geniş və yersiz təfərrüatlardan, qarışıq, mürəkkəb hadisələr burulğanından qaçmağa səy edərək sadəliyə, konkretliyə, yığcamlığa daha çox fikir vermişdir.*

***

***Əliağa Kürçaylının*** *poeziyası mərdliklə, işıqla, sevgi ilə dolu poeziyadır. Oxuculara aşıladığı duyğular müqəddəs, təmiz, nəcib, gözəl duyğulardır, o dəqiqə əks-səda verir, günəş şüası kimi hərarəti ürəkdə qalır. Öz kökləri ilə, şeirimizin ənənələri ilə sıx bağlı olan bu poeziyanın müasir ruhu güclüdür, öz orijinallığı, bitkinliyi ilə həmişə seçilmiş, fərqlənmişdir.*

*Vətənə, həyata, insana məhəbbət hissi Ə.Kürçaylının poeziyasında güclüdür, bir-birini təkrar etmədən müxtəlif variasiyalarda, motivlərdə bulaq kimi qaynayıb üzə çıxır. Bu şeirləri dalbadal oxuduqca onların dalğalar kimi bir-birinə bənzəmədiyini aydın duymaq olar. Çünki hər şeirdə bir hissin, bir duyğunun tərənnümü vardır.*

***

***Cabir Novruz** şeirləri üçün konkret mövzular götürsə də, onları təkcə bu mövzu ətrafında saxlamır, ricətlər, düşüncələr, xəyallar vasitəsilə genişləndirməyə, şaxələndirməyə çalışır. Bu onun qol-qanad açmasına, bir tempdən, başqa bir tempə keçməsinə, daha yüksəyə qalxmasına səbəb olur. Bu vaxt şair güclü, mənalı, yaxşı misralara geniş meydan verməyə imkan tapır.*

***

***Teymur Elçin** uşaqların ruhunu tutmaqda mahirdir. Maraqlı, əhəmiyyətli, lazımlı mövzular axtarıb tapır, müasir, gözəl formalar seçir. O, bütün əsərlərinin tərbiyəvi cəhətdən yüksək səviyyədə olmasına xüsusi diqqət yetirir. Məhz bu mənada şairin bir çox şeirləri maraqlı və cəzbedicidir. Onun uşaqların dilində əzbər olan "Tənbəl", "Din-dan", "Sərçəcik" kimi şeirləri həm məzmun, həm də formaca yaxşıdır, oynaqdır, xoş təsir buraxır.*

***

*Xanımana **(Xanımana Əlibəyli)** görüşlərdə əvəzsiz olur. Mən onun yaradıcılığını çox sevirəm və böyük bir məqalə də həsr etmişəm.*

*Xanımana Əlibəylini məktəblərə, bağçalara, kitabxanalara tez-tez görüşə dəvət edirlər. Hər dəfə bu görüşlər onun müvəffəqiyyəti ilə keçir. Uşaqlarla ünsiyyət tapmaqda, onların hüsnirəğbətini və məhəbbətini qazanmaqda şairin müstəsna qabiliyyəti özünü bütün parlaqlığı ilə göstərir. O, şeirlərini uşaqlara məxsus sadəliklə, intonasiya ilə, hərarətlə, hətta mən deyərdim ki, incə yumor qarışıq bir məlahətlə oxuyur. Şairin təbiətində bir uşaq sadəliyi, mehribanlığı, hərəkətləri özünü tez-tez büruzə verir. Eyni zamanda, analara məxsus bir nəvaziş, qayğıkeşlik, narahatlıq duyğuları da onun qəlbində yuva tapmışdır. Xanımanada həssaslığın, incəliyin olduğunu da əlavə etsək, onun təbiətinin rəngarəngliyini və bu rəngarəngliyin poeziyasında əks olunduğunu təsəvvürə gətirmək çətin deyildir.*





***

***İlyas Tapdığın** "Çimnaz oynayır" adlı yeni kitabı şən əhval-ruhiyyəsi, incə, xoş yumoru, sadəliyi, aydınlığı, uşaqlarda özünü göstərən qəribə, qeyri-adi cəhətlərin verilməsi nöqteyi-nəzərindən maraqlıdır. Müəllif təkcə yumor yaratmaqla, fikrini sadə və aydın verməklə vəzifəsini bitmiş hesab etməmişdir. O, şeirlərində balaca oxucuları düşündürən mənaya, tərbiyəvi cəhətə və dərinliyə xüsusi əhəmiyyət vermiş, dəfələrlə təkrar olunmuş, mənasız, boş situasiyalardan uzaq qaçmış, Azərbaycan xalq folklorundan istifadə edib, yeni xüsusiyyətlər tapıb aşkara çıxarmağa, onları poeziyaya gətirməyə çalışmışdır.*

***

*Adi daş, çiçək, yağış, ağac, bulaq, quş, şəlalə **Rafiq Yusifoğlunun** poeziyasında sehrli bir dona bürünür, adilikdən çıxıb mənalanır, canlanır, görünür, dil açıb danışır.*

***

*Emin **(Emin Mahmudov)** mənim böyük məhəbbətimi qazandı, onun dərin elmi biliyi məndə heyrət doğurdu. Ən çətin suallara cavab verirdi. Onun gülüşləri- duzlu, mənalı, əvəzsiz idi. Emində yaxşı insanlara məxsus bütün keyfiyyətlər vardı. Və məhz bu keyfiyyətlər məni ona daha çox bağladı. Niyə belə təmiz, yaxşı insanların qiyməti azdır? Ondan ayrılıb şəhərə gələndə yol boyu Emin Mahmudov haqqında düşünmüşəm. O, mənə elə qiymətli, elə gözəl bir hədiyyə verib ki, bunun dəyəri pulla ölçülməz.*

***

*Onun bütün əsərlərində qoçaq, mərd, igid və qorxmaz uşaqlardan məhəbbətlə söhbət açılırdı. İnqilab illərində, vətəndaş müharibəsində, arxa cəbhədə, Böyük Vətən müharibəsi günlərində, yaxud bugünkü həyatımızın müxtəlif sahələrində onların fəaliyyəti həmişə yazıçının diqqətində olmuşdur. **Eynulla Ağayev** daha çox inqilab illərindən yazmağı sevirdi. Bu mövzudakı*

*əsərlərdə həm uşaqlar, həm də onların sıx əlaqə saxladıqları inqilabçılar igid və mərd göstərilirdi.*

***

***Vaqif Bəhmənli*** *sevəndə, seviləndə, qəzəblənəndə, nifrət edəndə məhz elə bu günəş eşqi ilə, poetik hisslərlə yaşayır, odur ki, özünü dünyada tək hesab eləmir. Şehli şəhərin mənzərəsində şeiriyyət axtarır, ulu əcdadlarına arxalanır, babasına, nənəsinə güvənir, sınıb atılmış kuklanı görəndə kövrəlir. Ana torpağın nəfəsi ilə nəfəs alır. Doğma Araza, Xüdafərin körpüsünə, ayrılığa, vətən həsrətinə həsr etdiyi ayrı-ayrı şeir parçaları kitabın ümumi ruhu ilə səsləşir. Bir tərəfdən ata həsrəti, o biri tərəfdən ata olmaq xoşbəxtliyi onun şeirlərində vəhdətdə verilir. Həsrət nə qədər kədərlidirsə, xoşbəxtlik o qədər fərəhlidir.*

***

*Müasir bir insanın fikir və düşüncələrinə həsr edilən şeirlərin əksəriyyəti müvəffəqiyyətlidir. Bunları oxuduqca, nəcib, xeyirxah hisslərlə, duyğularla yaşayan, həyat, ölüm, zaman, dövran, insan haqqında düşünən bir insanı görmək olar. Hər şeydən əvvəl, bu insan narahatdır, gecə azan yolçulara, uçulmuş evini qura bilməyənlərə, ümidsiz gəzənlərə yoldaş, qardaş olmağa hazırdır. Bu insan (**Azər Abdulla**) keçmişdə yaşamış, mərd, qorxmaz ərənləri ilə, babaların qeyrəti ilə, ana yurdun tarixi ilə, gözəllikləri ilə fəxr edir, sevir, sevilir eyni zamanda dünyanın dərdləri, sevincləri, kədərləri ilə nəfəs alır.*

***

***Hüseyn Razinin*** *elə kitabı yoxdur ki, orda vətən haqqında şeir olmasın. Bütün bu şeirlər, bir silsilə, bir poema kimidir. Hamısı vəhdət halında bir yerə toplansa, Naxçıvan haqqında bir kitab yaranar. Şair yaşa dolsa da, başqa mövzulara müraciət etsə də, yenə Naxçıvan torpağını tərənnüm etməkdən doymur, bu müqəddəs mövzusundan uzaqlaşmır, həmişə yeni-yeni şeirlər yaradır. Çünki Naxçıvanın hər guşəsi onun üçün əziz və doğmadır.*





***

*İlk illərdən sənətin çətin yolunu seçmək, heç kimin getmədiyi bir yolla getmək, əlbəttə hamıya nəsib olmur.* ***Ələkbər Salahzadə*** *belə çətin yolla gedərkən, büdrədi də, azdı da, ciddi təhqirlər də gördü, bunlara baxmayaraq ruhdan düşmədi, inadcıl, iradəli bir inamla yaradıcılıq axtarışlarını apardı və özünəməxsus orijinal bir yol tapa bildi.*

*Ələkbər Salahzadə hətta şeirimizin formalarına belə biganə deyildir, onlara yaradıcı kimi yanaşmağı bacarmışdır. Bütün bunlar orijinallıq etmək xatirinə deyildir, bizim poeziyamızda yeni cığır açmaq, yeni söz demək, yeni nəfəs gətirmək məqsədini güdür. Onun şeirlərində elə təzə qafiyələr, təzə ifadələr, dönüşlər, formalar, üsullar, bədii təsvir vasitələri vardır ki, bunlar gözlənilməzdir, eyni zamanda şairin özünə məxsusdur. Xüsusilə bədii obrazların zənginliyi, onların ifadə tərzi Ələkbər Salahzadənin poeziyasını qiymətli edir.*

***

***Müzəffər Şükür*** *Azərbaycan şeirinin, xalq ədəbiyyatının ənənələrinə bağlı olan şairlərdən biridir. Bu cəhət onun "Bu torpağın nəğmələri" adlı ilk kitabından özünü göstərmişdi. Sonra bu ənənələrə sadiq qala-qala kitabdan kitaba inkişaf etməyə, özünəməxsus yolu, dəstxətti qazanmağa başladı.*

***

***Aleksandr Blok*** *rus xalqının böyük şairlərindən biridir. Onun özünəməxsus qəribə, keşməkeşli, həyat və yaradıcılıq yolu vardır. Mənəviyyatca zəngin bir insan olan A.Blok az yaşamasına baxmayaraq zəngin ədəbi irs qoyub getmişdir. Həm şeirlərini, həm pyeslərini, həm poemalarını, həm gündəliklərini, həm də məktublarını vərəqləsək, bunların arxasında dövrü ilə, xalqı ilə, onun istək və arzuları ilə yaşayan müdrik, ağıllı və zəkalı bir insanın surətini aydın görə bilərik. O, heç kimə bənzəmirdi, tamam orijinal bir şəxsiyyət idi. Həyatda olduğu kimi, yaradıcılığında da heç kimə bənzəmirdi. Əsərlərinin elə müsbət cəhətləri*

*vardı ki, bunlar onu rus poeziyasının tarixində yüksək bir zirvəyə qaldırmışdı. Blok öz sağlığında hamının böyük məhəbbətini qazanmışdı, özü həyatda olmayanda da bu məhəbbət soyumadı, onun həyatına, yaradıcılığına maraq daha da gücləndi.*

***

*Görkəmli rus yazıçısı* ***Nikolay Tixonov*** *bizim Azərbaycan ədəbiyyatının ən yaxın dostlarından biridir. O, həmişə respublikamızla əlaqə saxlayır. Klassiklərimizin yubileylərində fəal iştirak edir, yeni yaranan əsərlərimiz haqqında fikir və mülahizələrini söyləyir. Hələ ilk gənclik illərindən Qafqaza böyük məhəbbət bəsləyən sənətkar şeirlərinin birində yazırdı:*

*Bu ölkədə hər şey mənə tanışdı,*
*Sanki bu torpaqda doğulmuşam mən.*

***

*Poeziya mənim üçün həmişə möcüzədir. Uşaqlıq illərində bu möcüzə elə bir qüvvəyə malik idi ki, məni ahənrüba kimi özünə çəkirdi. O vaxt müasir şairlərin hamısını acgözlüklə, birnəfəsə oxuyurdum. Eyni zamanda həm Azərbaycanın, həm də rus və Avropa ədəbiyyatının klassiklərini dönə-dönə mütaliə edirdim. Beləliklə, mütaliə özüm hiss etmədən, hava, su kimi həyatıma daxil oldu. Onsuz bir günümü təsəvvürümə gətirə bilmirəm. Onda ən çox* ***Henrix Heyneni*** *oxuyurdum, böyük alman şairi qəlbimə elə yol tapmışdı ki, onun hər şeiri mənə möcüzə kimi gəlirdi.*





## Görkəmli şəxsiyyətlər, elm və mədəniyyət xadimləri Tofiq Mahmud haqqında

Mən həmişə uşaq şeiri yazanda sənin jurnalın, ən əsası, vacibi isə sənin müdrik, xeyirxah, uşaq sifəti qədər təmiz siman yadıma düşür. Açığını deyim ki, bəlkə də sənin nəcibliyin, həssaslığın və diqqətçiliyin olmasaydı mən bu son illərin uşaq şeirlərini yazmazdım. Yazsam da onları mütəmadi "Göyərçin" jurnalına təqdim etməzdim. Bu yaxşı işlərin günahkarı sənsən...

**Cabir Novruz,**
*Xalq şairi*

Tofiq Mahmud Azərbaycan torpağını çılğın bir ehtirasla sevən şair, nasir və publisist idi, böyük mərifət sahibi, qayğıkeş insan nümunəsi idi. Bütün bu keyfiyyətlərin bünövrəsində onun səmimiliyi və təvazökarlığı dururdu.

Sən bu altmış illik ömrünün təxminən 40 ilini qibləgah bildiyimiz sənətə həsr eləmisən! Böyük qürürla, böyük zəhmətlə, böyük ehtiramla, böyük həvəslə. Sənin rəngarəng yaradıcılığının çox böyük hissəsini Azərbaycan uşaq ədəbiyyatının təbliği, onun müxtəlif dillərdə tərcüməsinin təşkili məsələləri tutur. Səni müxtəlif ədəbi görüşlər zamanı müşahidə etmişəm: uşaqlarla görüş zamanı əsil mənada dönüb uşaq olursan. Onlara qarışıb oynamaq, gülmək, uşaq kimi əl çalmaq, atılıb-düşmək istəyirsən.

**Məmməd Araz,**
*Xalq şairi*

Şəxsiyyəti şeirdir, nə yazırsan şeir, əsər?! Məncə fərqi yoxdur, təkcə janr müxtəlifliyi var.

**Yaşar Qarayev,**
*professor*

Ədəbiyyata öz nəfəsi, öz sözü ilə gəlmək-səadətdir. Bu cəhət, adətən, hər bir həqiqi şairin hələ ilk qələm təcrübələrindən özünü göstərir. Gənc şair Tofiq Mehdiyev də belə müəlliflərdəndir.

Mən sənin səmimiyyətinə, qəlbinin təmizliyinə çoxdan inanmışam. Mən ona da inanmışam ki, sənin daxilinlə xaricində kəskin fərq var. Sənin zahirin zəif, ifrat sadə, utancaq, dağınıq və bir qədər də şulumdur. Daxilin isə çox odlu, alovlu, mənalı və olduqca zəngindir.

**Qulu Xəlilov,**
*professor*

Tofiq Mahmud təbiəti duyan, onu vurğunluqla tərənnüm edən, hər otu, hər çiçəyi xarakterik cizgilər vasitəsi ilə təqdim edən şairlərimizdəndir.

Biri var idi, biri yox idi, yer üzündə nağıllar dünyasından doğulan, nağıllar dünyasında yaşayan, ömrü bir az şirin, bir az ağrılı-acılı nağıla çevrilən bir insan, bir şair var idi... Üzündən, gözündən, qar kimi dümağ saçından nur yağırdı... Tofiq Mahmud həyatını, ömrünü uşaq ədəbiyyatına, uşaq mətbuatına həsr eləmişdi. "Göyərçin" jurnalının redaksiyasında göyərçin xislətli bir ömür yaşayırdı. Özündən sonra göyərçin xislətli bir xatirə qoyub getdi. Nağılları, şeirləri, poemaları "Göyərçin"in səhifələrində gələcək nəsillərə yadigar qaldı.

**Rafiq Yusifoğlu,**
*professor*

Tofiq Mahmud Azərbaycan tarixinin ən gözəl səhifələrində özünə layiqli yer tutmuş gözəl insan, vətəndaş və şəxsiyyət idi. O, öz həyatını cəmiyyətin gələcəyinə, uşaqlara həsr etmişdi. Təsadüfi deyil ki, 1988-ci ildə Azərbaycan Uşaq Fondu yarananda Bakı ictimaiyyəti ən layiqli ziyalı Tofiq Mahmudu Uşaq Fondunun şəhər şöbəsinin sədri seçmişdi. Eyni zamanda ömrünün





axırıncı dəqiqələrinədək Azərbaycan Uşaq Fondu rəyasət heyətinin tərkibində fəal iştirak edirdi.

**İsmayıl İbrahimov,**
*akademik*

Gözəl şair, gözəl insan Tofiq Mahmud bu gün ulduz ömrü yaşayır və hələ də ətrafına işıq saçır. Bu işıqlı insanın sözü kimi özü də unudulmazdır. Uşaq ədəbiyyatının göyərçini Tofiq Mahmud uzun illər "Göyərçin" jurnalının əvəzsiz redaktoru olmuşdur. Əməlləri də şeirləri kimi saf, özünəməxsus idi. Mən onu düzlük, xeyirxahlıq timsalı bilirdim.

**Əleviyyə Babayeva,**
*yazıçı*

Tofiq Mahmud xeyirxahlıq təcəssümü, yüksək mədəniyyət nümunəsi idi. Gözəl təşkilatçılıq qabiliyyəti, hədsiz zəhmətkeşliyi ilə hər vaxt başqalarından seçilirdi. Son dərəcədə etibarlı, etiqadlı insan idi. Dünyasını dəyişən qələm dostlarını unudulmağa qoymaz, onlar haqqında bir-birindən mənalı yazılar dərc etdirər, xatirə günləri keçirərdi.

Tofiq Mahmudun işıqlı ürəyində hamıya yer vardı. Gözəl dost, etibarlı həyat yoldaşı, məhəbbətli ata idi Tofiq Mahmud. Onun şeirləri, poemaları, hekayə və povestləri neçə-neçə gənc nəslin tərbiyəsində əhəmiyyətli rol oynamış, ürəklərdə vətənpərvərlik duyğuları oyatmışdır. Tofiq Mahmudun yeri həmişə görünür.

**Əzizə Əhmədova,**
*filologiya elmləri doktoru*

Onun nəciblik, xeyirxahlıq hopmuş sözləri qulağımda, dərin-duru baxışları gözlərimdə, gümrah oturuşu-duruşu nəzərimdə ikən ...mən Tofiqi necə tarixə çevrilmiş ömür kimi xatırlayım?.

O nadir şəxsiyyətlərdən idi. Şeirləri də, nəsri də, hətta

məqalələri də özünəməxsus idi. Zamanın acı küləyindən ziyanlıq çəkməmişdi. Kövrək, səmimi, ulular ruhundaydı. "Göyərçin" xislətli idi.

**Cəmil Əlibəyov,**
*yazıçı*

Tofiq Mahmud əsl mətbuat cəfakeşi, gözəl insan idi. Olduqca mehriban, ürəyiaçıq, gülərüz. Həmişə yaxşılıq eləməyə çalışan bir kişiydi. Biz də elə bu keyfiyyətlərinə görə onun xətrini uca tutur, böyük kimi hörmətini saxlayırdıq.

**Vasif Quliyev,**
*publisist-tərcüməçi*

Tofiq Mahmud uşaq kimi təmiz, saf, günahsız, hər cür hiylə, böhtan və iftiradan uzaq idi. Mən Tofiqi 25-26 il tanısam da, onun hansı ali məktəb bitirdiyini, hansı ixtisas sahibi olduğunu bilmirdim. Bəlkə buna heç ehtiyac da yox idi. Ona görə ki, Tofiq Mahmud yüksək tərbiyəyə, mədəniyyətə malik şəxsiyyət, ədəb-ərkan sahibi idi. Mübaliğəsiz deyə bilərəm ki, o, dünyanın ən hörmətli, ən şöhrətli mədəniyyət universitetini bitirmişdi.

**Hacı Ağəddin Mansurzadə,**
*jurnalist*

Tofiq Mahmud işıqlı bir insan idi. Sanki o, bu işıqları öz dostlarına, tanışlarına paylayırdı. Həmin işıqların bir damlası da mənim ürəyimdə parlayır. Ürəyim döyündükcə bu işıq daim şəfəq saçacaqdır. Tofiq Mahmudun nurlu çöhrəsi həmişə gözümün qabağında canlanacaqdır.

**Mir Sabir,**
*şair*

Azərbaycan uşaq nəsrində məktəb həyatından yazılan əsərlər o qədər də çox deyildir. Məktəb həyatına dərindən bələd olmaq,





şagirdlərin bir- birinə bənzəməyən xarakter və psixologiyasını, dünyaya baxışını araşdırmaq hər uşaq yazıçısına nəsib olmur. Lakin Tofiq Mahmud araşdırmalar apararaq bu sirli, olduqca mürəkkəb olan məktəb həyatına nüfuz edə bilmiş, oxunaqlı sənət əsəri yaratmağa nail olmuşdur.

Tofiq Mahmud həm şair, həm nasir, həm də publisist, həm də tərcüməçi kimi fəaliyyət göstərmişdir. Gözəl əsərlər müəllifi olan sənətkarın bir çox əsərləri dünya xalqlarının dillərinə tərcümə olunmuşdur.

**Füzuli Əsgərli,**
*professor*

**Bir şair dostum vardı**

Bir şair dostum vardı,
Tofiq Mahmud adında.
Sevgisi oxunardı
Gözlərinin odunda

Sadəydi Tofiq Mahmud,
Şagird imlası kimi.
Təmizdi Tofiq Mahmud,
Bulaq damlası kimi.

Görüşəndə sözləri
Şam kimi yandırardı.
O, şeir oxuyanda
Bülbülü andırardı.

Sözləri muncuq kimi
Sırayla düzülərdi.
Elə bil ki, kəlmələr
Qayadan süzülərdi.

Bir şair dostum vardı,
Tofiq Mahmud adında.
Sevgisi oxunardı
Gözlərinin odunda.

**Zahid Xəlil,**
*professor*

Təsəvvür edək ki, biz şəffaf bir bulağın yanında dayanmışıq. Bu hələlik coşğun deyildir, böyük çəmənlikləri, zəmiləri, tarlaları suvara bilmir. Lakin bununla belə onun açdığı balaca məcranın kənarındakı çiçəklər təravətli və könül açandır. Bu çiçəklər öz hüsnü, öz ətri, öz rəngilə başqalarından seçilir. Oxucuların yaxşı tanıdığı gənc şair Tofiq Mehdiyev belə bir poeziya bulağına malikdir.

Tofiq istedadlı, həssas bir şairdir. Onun lirikası Vətən, sevgi, uşaqlıq, gənclik, ailə, məişət, ana, dostluq, yoldaşlıq və sairə bu kimi ən sadə, lakin ən gözəl mövzuları əhatə edən bir lirikadır.

.... Tofiq gözəl lirik şeirlər yazmaqda davam edir. Bulaq axır, ətrafındakı çiçəklərə həyat və gözəllik verir. O, özünün az, lakin şəffaf sularını böyük poeziya ümmanının coşğun dalğalarına qatmaq üçün açdığı kiçik məcrada həzin-həzin çağlayır, irəli can atır.

**Xəlil Xəlilov,**
*ədəbiyyatşünas*

Tofiqin alovlu, mənalı, məzmunlu şeirləri onu tələbələrin sevimlisi etmişdi. "Sənətə söz deyə bilən istedad gəlir" – bu kəlam Tofiqə ünvanlanmışdı. Bu sözləri o vaxt bizə dərs deyən görkəmli alimlərimiz, ədəbiyyat korifeyləri – Ə.Sultanlı, C.Xəndan, M.Cəlal, M.Rəfili, F.M.Qasımzadə, A.Zamanov dönə- dönə söyləyirdilər.

Tanrının bizə bəxş etdiyi nemətlərdən ən şəffafı, ən safı sudur. Tofiq də təbiətən suya bənzəyirdi....

**Tahirə İsgəndərova,**
*jurnalist*





# I HİSSƏ

# ƏSƏRLƏRİ

## Kitablar

### 1959

**1.Mənim kürəkənim:** bir pərdəli pyes /Tofiq Mehdiyev; red. Ə.İsmayılov; rəs. F.Quliyev.- Bakı: [s. n.], 1959.-12 s.

**2.Yola çıxıram:** şeirlər /Tofiq Mehdiyev; red. İ.Tapdıq; rəs. H.Q. Zeynalov.- Bakı: Uşaqgəncnəşr, 1959.- 33 [6] s.: portr.

***Kitabın içindəkilər:*** Mavzoley; Yola çıxıram; Sərgidə; Tələbə qıza; Açdım öz eşqimi...; Qızıma; Qonaqkənd dağlarında; Təzə şəhər kimi; Gənclik xiyabanında; İşdən sonra; Xaçbulaq; Şeir dəftərçəsi (Musa Cəlilin xatirəsinə); Şamaxı; Gəlsin; Ana nağılları, ana laylası; Naziləmə nə olub bu gün?; Uçun, uçun buludlar; Nizami küçəsi; Şuşadan Laçına; Sazım ("Tar" şeirinin müəllifi M.Müşfiqin xatirəsinə); Anamın yuxuları; Vətən yollarında.

### 1962

**3.Dibçək:** şeirlər /Tofiq Mahmud; red. İ.Tapdıq; rəs. R.Mehdiyev.- Bakı: Uşaqgəncnəşr, 1962.- 16 s.

***Kitabın içindəkilər:*** Quşun nəğməsi; Su; Tik, ay nənə...; Dibçək; Məzəli oğlan; Ev süpürən qız; Kəpənək; Acıqlanma, anacan!; İlqar; Mişar.

### 1963

**4.Buzovna qayaları**: şeirlər /Tofiq Mahmud; red. Ə.Ziyatay; rəs. S.Qənbərov.- Bakı: Azərnəşr, 1963.-51 [1] s.

***Kitabın içindəkilər:*** Gəzməsəm də, görməsəm də...; Həyat

sevgisi; Əsgər məktubları; Gənclik; Şeirimin rəngləri; Azərbaycan nağılları; Mən səni çox sevirəm; Qardaşım, yadıma düşürsən (Mehdi Hüseynzadəyə); Sevdim, Eteri; Gəl, oğlum, gəl; Unudur; Sənə ana demək olmaz; Buzovna qayaları; Qığılcım; Söyüd; Bir qız gördüm kənddə mən; Sərnişinlərə; Sevgi və nifrət; Sadə dost; Evə girə bilmədim; Mənim nəğməm; Keçir illər, əzizim; Yad torpaqda doğma səs (Amerikada olmuş bəstəkar Fikrət Əmirova); Qaytarın o günləri; İki alman; Vətənimin çiçəkləri; Düymə; Anamdan ayrılanda; Şəlalə; Necə qaytarım? ("Qaytar ana borcunu" şeirinin müəllifi Ə.Kərimə).

**1964**

**5.Utancaq oğlan:** şeirlər /Tofiq Mahmud; red. İ.Tapdıq; rəs. R.Mehdiyev.- Bakı: Azərnəşr, 1964.- 16 s.

***Kitabın içindəkilər:*** Gəl ağlama, Zərifə; Bəşir; Çiyələk; Utancaq oğlan; Ləpələr dilə gəldi; Susəpən; Dozanqurdu; Bibim; Kiçik bayraq.

**1966**

**6.Açıqdır pəncərəm** ...: şeirlər və poemalar /Tofiq Mahmud; red. X.Rza; rəs. F.Quliyev.- Bakı: Azərnəşr, 1966.-107 [1] s.

***Kitabın içindəkilər:*** *Həyat duyğuları:* Ürəyimə; Açıqdır ki, pəncərəm; Keçid; Sual verər uşaqlar...; Mən gedirəm, gedəcəyəm; Sakitliyə düşmənəm; Plaş geyən qız; Susan piano; Təbriz; Səkinə; Körpə yoxsa da...; Uzadıram əllərimi; Gözəllik qucağında; Zəhərdən sonra qatıq...; Gənclik... Bahar...; Bir içim su; Bir uşaq yol gedirdi; Mən yanmaya bilmirəm (Yazıçı dostum Sabir Əhmədova); Atalar sözü; Araz qırağından məktub (Şair Söhrab Tahirə); İşıqlı otaqda kölgə; Hədiyyə; Yardımlıda payız; Qarının hekayəti; İsa bulağı; Güllələr altında doğulan uşaq; Uşaq kimi, ata kimi..; İki pəncərə; Biri günəş, biri ay...; Yaşadın. *Lirik notlar*: Mənə çox gərəkdir; Bizim görüş yerimiz; Yadındamı?; Sevgi və nəğmə; Nərgiz və mən (Maral Rəhmanzadəyə ithaf);





Baxışların sirri var!!!; Gecikən sevgi; Qorxuram...; Görən hardasınız siz?; Sənsiz; Məhəbbət; Gizli xəzinə; İlk dəfə; İnam olanda...; O qıza; Mən səni axtarıram; Ana (Kübra xanım Dadaşovaya ithaf olunur); Sənin təbəssümün; Qısqanclıq (Rəfiqəyə ithaf); Ömür; Yenə gileylisən; Uşaqlıqdan sevmişəm; Mən sənə inanıram... *Kiçik poemalar:* Dəniz və bir damla göz yaşı; Qərinələr; Son nəğmə.

**1967**

**7.Alpinistlər:** şeirlər və poemalar /Tofiq Mahmud; red. S.Əsəd; rəs. Ş.Hüseynov.- Bakı: Gənclik, 1967.- 61 s.

***Kitabın içindəkilər:*** *Şeirlər:* Meşədə şənlik; Qonaq; Xəzərin sahilləri; İstisu lövhələri; Dağ kəndində yaşayırıq; Bir oğlan tanıyıram; İydə ağacı; Ceyranbatan; Gəzir yer kürəsini; Dalandar; Tələsəndə; Qış yuxusu; Qorxutmasın qar səni; *Poemalar:* Yaxşılıq və paxıllıq; Alpinistlər.

**1969**

**8.Meşədə səs**: şeirlər, poemalar /Tofiq Mahmud; red. İ.Tapdıq.- Bakı: Gənclik, 1969.- 70 [2] s.

***Kitabın içindəkilər***: *Şeirlər:* Süsən və günəş; Cığır; Bir parça bulud; Nazim baxır; Tut ağacı; Anam işə gedəndə; Fəvvarə; İki qız; Fişəng; Qaya-təyyarə; Kinodan gəlir İlqar; Futbol oynayır Sadıq; Süsən və ləpələr; Əhməd gedir küçədə; Qar yağır; Çiyələk; Yük maşını; Pəncərədə; Özü bilmir; Nəğmə, işıq və çiçək; Təzə iz; Dörd bacı; Atasını sevən qız; Özü girib cibimə; Yorulmuşam; Söhbət; Yarpaq niyə saralır?; Keçim; Güləyən Süsən; Yetim dayça; *Poemalar:* Süsən gəzir Abşeronu; Meşədə səs; *Nağıl:* Xeyirxah dələ.

**1970**

**9.Zəlzələ:** üç pərdə, altı şəkilli dram /Tofiq Mahmud; red. H.Ziya; Həmkarlar İttifaqlarının Respublika Bədii Özfəaliyyət Evi.- Bakı: [s. n.], 1970.- 69 [2] s.

**1971**

**10.Ana qucağı:** şeirlər /Tofiq Mahmud; red. Ə.Salahzadə; rəs. A.Hüseynov.- Bakı: Gənclik, 1971.- 74 s.

***Kitabın içindəkilər:*** Yan, ürəyim, yan; Oğullar, çinarlar, ulduzlar...; Ana qucağı; "Var- dövlət yerinə..."; Açın, açın qapıları!; Kəlbəcər dağlarında; Linotipçi qardaşım; Bir inciyə çevrilib; Ulduzlar və nağıllar; "Sizə yalvarıram..."; Meşə dənizə bənzər; Sevdiyim şəhər; Evə körpə gəldi; "Yaxşı ki..."; İki ay da möhlət verin; Bir rəngdə olmur; Bir qoca gördüm; Musiqiçilərə; Yaxşı dost; Ana qolları; Mahnı olur...; Yalqızlıq; İnanıram nağıllara; Qibtə; Kövrəklik; İlk sevgi nəğməsi; Doğma şəhərdə; Ağaclar qışda; Sən elə təmizsən; Təyyarə meydanında gecə; Danimarka uşaqları; Sən də odsan; Gözəgörünməz tellər; Otaq; On yeddi yaş; Xatirə və görüş; Qızım Süsənə; Nöqtə və lalə.

**1973**

**11.Qızımın sualları:** şeirlər və poemalar: [kiçikyaşlı məktəblilər üçün] /Tofiq Mahmud; red. Ə.Salahzadə; rəs. B.Xananyev.- Bakı: Gənclik, 1973.- 96 s.

***Kitabın içindəkilər:*** *Şeirlər:* Heykəl; Azərbaycan torpağında; Nəğmə; Qızlar və ulduzlar; Alma bağı; Əlifba bayramı; Qızımın sualları; Qazlar; Duman gəldi; Xətkeş hanı?!; Balaca bir otaqda; Qəribə çəpiş; Bağban. *Qulam haqqında şeirlər:* Qulam qonaq gedəndə; Qulamgilə qonaq gəlir; Qulam çıxır həyətə; Velosiped sürən qaz; Külək əsəndə; İsti nəfəs; Qız və günəş; Dağlarda şəhər; Qapıçı; Dostluq qatarı; Ağ dənizdə bir gəmi...; Yağ, yağış!; Buldozer; Günəşin nəğməsi var...; Gündüz qoçaq, axşam qorxaq; Nağıl danışır; Küsmüşəm; Cildini dəyişsə də...; Çəyirtkə və qurbağa; Yemiş; Yasəmənim; Kök; Nağıllı sahil; İlk dəfə; Üşüyürəm; Mehriban; Şəlalə; *Poemalar:* Styopa dayı Bakıya gəlib; Taksi sürücüsü; Sehrli maşın, Süsən və Toplan; Usta Dadaş.





**1976**

**12.Dalğalar:** hekayələr, əfsanələr, nağıllar /Tofiq Mahmud; red. M.Namaz; rəs. N.Rəhimov.- Bakı: Gənclik, 1976.-134 [2] s.

***Kitabın içindəkilər:*** *Hekayələr:* Körfəzdə; Əsgərlər haqqında nağıl; Meşəbəyinin söhbəti; Sarı plaş; Qəhrəman təyyarəçinin qardaşı; Maşinist; Adada hadisə; Əsgər şəkli; Ana qağayı; Qəhrəmanın heykəli; Dalğalar; Muzey; Yaylaqda; *Əfsanələr:* İgid çapar; Minarədən atılan daşlar; İşıq; Dəmirçinin qəzəbi; *Nağıllar:* Xeyirxah adam; Ədalətli fil; Bir dərənin sirri; Kəpənək və qarğa; Həm gözəl, həm doğma; Boz sərçənin nağılı; İradə; *Sənədli povest:* Cırtdanın söhbətləri.

**1977**

**13.Ulduzlar, düşüncələr**: şeirlər /Tofiq Mahmud; red. M.Şükür; rəs. A.Məmmədov.- Bakı: Azərnəşr, 1977.- 111 [1] s.

***Kitabın içindəkilər:*** *Ömür nəğməsi:* Xeyirxahlıq; Təyyarə Bakıya enir; Səhər; Qar yağır Şahbuza...; Təmiz olanda...; Dalğa; Günlər; Dahilər; Ömür nəğməsi; Yan!; Hər yanda yaşayıram; Gün gəlir, gün gedir; Gənclik məndən uzaqlaşır; Dərilməmiş bənövşələr; Fəhlə əlləri; Meşənin dərinliyində; Suallar, xəyallar; Meşədə armud ağacı; Qayalar; Mənim anam acardır; Bir qanad istədim; Günəş; Üfüqlər dalında; Meşə payız vaxtında; Professor Əli Sultanlının xatirəsinə; Yanan buludlar; İllər qayıtmasa da; Zirvə; Bahara bənzəyən payız; Xatirələr dəftəri; Ulduzlar... düşüncələr; Martin İden; Toy günündə kədərli xatirə; Velaskesin əsəri; Tələyə düşən cüyür haqqında ballada; Kukla almayan ataya məktub; Sevən qızın söhbəti; Zəriflik. *Hər ildən bir şeir:* O təpələr, o yamaclar; Gəl, Xəzərim; Ürəyimin zirvəsindən; Buludlar; Bakıdan ayrılanda; Yanan ağaclar; Durnalar; Gədəbəydə qış; Həkəri çayı; Anamın qucağında; Səni hər yanda gördüm; Gözlərəm; Çətin olar; Gəzirəm vətəni; Meşədə yağış; Yaxındılar ulduzlar mənə; Xan sarayı... qoşa çinar; Astaraya çatmamış; Əlvida, Editt, əlvida; Ovçu deyiləm; Çinar meşəsi; Şüalar;

Dağdan arana enəndə; Təbəssüm; Darıxıram; Qızlar boğçası. *"Lirik notlar" dəftərindən:* Köçəri quşlar; Gizli sevgi; Ayrılıq; Lalə; Lal baxışlar; Yoxdur səndə; Ayrıldın; Dəyişsən də; Çox sevdiyim, fəqət; Gələcək üçün; Qorxulu deyil; Axtarma; Dərmə!; Zəhmətlə; Ey dəqiqə!; *"Lirik damcılar" silsiləsindən:* Salam!; Damla; Bir qucaq çiçək; Aldanma.

**1978**

**14.Pəncərəyə toxunan budaq**: hekayələr /Tofiq Mahmud; red. M.Namaz; E.Məlikov.- Bakı: Gənclik, 1978.- 133 [3] s.

***Kitabın içindəkilər:*** Ankara stansiyasında leysan; Pəncərəyə toxunan budaq; Rus dili müəlliməsi; İlk ezamiyyət; Poeziya günləri; Leyla; O, evə axşam qayıdır; Qoca və iki uşaq; Aktyor; Quzu; Donan çay; Balaca Hamlet. *"Təbiət lövhələri"ndən*: Şabalıd meşəsi; Cavanşir qalasına yol; Nəhəng qaya; Dərə boyunca; Dağ və günəş.

**1980**

**15.Kəpənək gözəlliyi:** [kiçik və ortayaşlı uşaqlar üçün] /Tofiq Mahmud; red. Ç.Əlioğlu; rəs. İ.Quliyev.- Bakı: Gənclik, 1980.- 180 s.

